**N.C.MEHDİYEVA**
*tarix üzrə elmlər doktoru, professor*
*e-mail: nisbetmehdiyeva@mail.ru*

**Bakı Dövlət Universiteti**
(Bakı şəh., Z.Xəlilov küç., 23)

# ƏHMƏD ZƏKİ VALİDİ TOĞAN VƏ AZƏRBAYCAN

***Açar sözlər:*** *Başqırdıstan, dövlət xadimi, alim, Azərbaycan, tədqiqatlar*
***Ключевые слова:*** *Башкирия, политический деятель, ученый, Азербайджан, исследования*
***Key words:*** *Bashkortostan, statesman, scholar, Azerbaijan, investigations*



Türk xalqları tarixinin hər bir sahəsinin araşdırılması özünəməxsusluğu və mahiyyəti etibarı ilə seçilir. Bu xalqların tarixi olduqca zəngin və bənzərsiz olmuşdur. Onların dövlətçilik ənənələri, yetişdirdiyi şəxsiyyətlər, dövlət xadimləri, siyasət insanları, ictimai-siyasi həyatda apardıqları mübarizələri heç bir xalqın təcrübəsinə oxşamamışdır. Bu xalqlar özünəxas inkişaf yolu keçmişdir. Həmişə azadlıq uğrunda mübarizə tarixinə sadiq olmuş, heç nədən çəkinmədən öz obyektiv işlərindən dönməmişdir. Türk xalqları haqq yolunu seçdiyi üçün son nəticədə bu, uğurlu və məqsədyönlü şəkildə özünü əks etdirmişdir. Dünya mədəniyyəti xəzinəsinə öz töhfələrini verən türklər həmin işə sadiq qalaraq sivilizasiyanın inkişafında müəyyən nailiyyətlər əldə etməyə müvəffəq olmuşlar. Belə şəxsiyyətlərdən biri başqırd Zəki Validi Toğan idi. O, öz yaradıcılıq fəaliyyətini türk xalqları, o cümlədən başqırd xalqının milli azadlıq mübarizəsinə həsr etmişdir. Onun həyat kredosu öz dövləti və xalqını azad görmək idi. Z.V.Toğan dövlət xadimi və görkəmli alim olmuşdur. Olduqca istedadlı olan bu şəxs yalnız öz xalqı deyil, həm də digər türk xalqlarının tarixi ilə çox maraqlanmışdır. O, Azərbaycanda çox sevilir, yaradıcılığına böyük maraq göstərilir, yubileyləri keçirilir, auditoriyalarda bu böyük insan haqqında tələbələrə məlumat verilir, məqalə və əsərlərdə onun siyasi və elmi fəaliyyəti işıqlandırılır. İlk təhsilini Başqırdıstanda almış, Vyanada təhsilini davam etdirmiş, daha sonra burada “İbn Fədlanın şimal bulqarları, türklər və xəzərlərin ölkəsinə səyahəti” adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Bu alimin yaradıcılığı kütləvi informasiya vasitələrində öz əksini tapmış, xalqımıza onun şəxsiyyəti və keçdiyi yol haqqında məlumat verilmişdir. Türk xalqlarının bu şəxsiyyəti həmişə respublika ziyalılarının diqqət mərkəzində olmuşdur. Əfsuslar olsun ki, onun bəzi sənədlərindən SSRİ dövründə Azərbaycanda istifadə olunmasına imkan verilməmişdir (5, s. 14-15).

1917-ci ilin oktyabr hadisələrinin təsiri altında noyabr ayının 15-də Orenburqda keçirilən yığıncaqda Başqırd Mərkəzi Şurası Başqırdıstanın muxtariyyətini elan etmişdir. Dekabr ayında III Başqırd qurultayı toplanmışdır. Burada başqırdların ali hakimiyyət orqanı kimi ilk Başqırd Xalq Məclisi təşkil edilərək onun daxilindən Mərkəzi Başqırd Milli Şurası və ilk Başqırd Milli hökuməti seçilmişdir. Hökumətin sədri vəzifəsi Manatova, sədrin müavini isə Z.V.Toğana tapşırılmışdır. Belə bir şəraitdə yeni bolşevik hökuməti qurultayın qəbul etdiyi qərarlardan sonra yaranmış şəraiti müzakirə etmək üçün başqırd liderlərini mərkəzə dəvət etmişdir. Danışıqlar zamanı bolşevik rəhbərliyi yalnız sovet sosialist quruluşlu muxtariyyəti tanıyacağını bildirmişdir. Lakin Z.V.Toğanın təkidi ilə bu təklif başqırdlar tərəfindən rədd edilmişdir. Yanvarın sonunda bolşeviklər Orenburqu almışlar. Orenburqda bolşeviklərin nəzarəti altında Orenburq Müsəlman Hərbi-İnqilab Komitəsi təşkil edilmişdir. 1917-ci il fevralın 16-da Hərbi-İnqilab Komitəsinin qərarı ilə Başqırd Mərkəzi Şurasının

rəhbərləri Z.Validi, Vaqapov, Adiqamov və Altbayev həbs olunmuşlar. Həbsdən çıxandan sonra 1918-ci il yanvar ayının 27-də Z.Validinin rəhbərliyi ilə qurulan yeni Başqırd Hökuməti Müstəqil Başqırd Demokratik Respublikasının təşkil edilməsi üçün hazırlıq tədbirlərinə başladığını bəyan etmişdir. Z.V.Toğan 1920-ci ildə sovetlərin siyasətindən narazı olaraq gözlənilən repressiyalardan yaxa qurtarmaq üçün Türküstana getməli olmuşdur (3, s. 70-71, 75). Görünür, Z.V.Toğan da M.Ə.Rəsulzadə kimi yeni hakimiyyətin mahiyyətini zamanında anladığından bu qərarı qəbul etmişdir. Türküstan Milli Şurası yaradıldıqdan sonra bolşevik rejiminə qarşı mübarizə başlanmışdır (5, s. 14-15).

V.İ.Leninə ünvanladığı məktubda Z.Validi Toğan haqlı olaraq sovet hakimiyyəti tərəfindən türk xalqlarının hüquqlarının açıq-açığına tapdandığını qeyd edərək yazmışdır: "Rusiya Kommunist Partiyasına Rusiyadan çox uzaqlarda yerləşən Asiya və Afrika ölkələrindəki xalqların xilasından danışması daha yaxşıdır" (4, s. 45).

1925-ci ildə Atatürkün göstərişi ilə Berlində siyasi mühacir kimi müvəqqəti sığınacaq tapan Z.Validiyə Türkiyə vətəndaşlığı verilmişdir. O, maarif nazirinin müşaviri təyin edilmiş, eyni zamanda İstanbul Universitetində Türkiyə tarixindən mühazirələr oxumağa başlamışdır. Mühacirətdəki Türküstan Milli hərəkatının liderlərindən biri kimi tanınmış, əqidə yoldaşları ilə birlikdə hərəkatın bir sıra nəşrlərinin əsasını qoymuşdur. Özünün də bir neçə əsəri nəşr olunmuşdur. İstanbulda dünya şərqşünaslarının XXI Beynəlxalq konqresi keçirilmişdir. Burada o, yeni elmi mərkəz – İslam Araşdırmaları İnstitutu yaratmış və ilk direktoru olmuşdur (5, s. 14-15).

Z.V.Toğan Vyana Universitetinin yetirməsi olsa da, əslində, o V.V.Bartold məktəbinin nümayəndəsidir. Z.Validinin yetirmələrindən olan, tanınmış türk tədqiqatçısı Emel Esin yazılarının birində ustadının gənclik illəri haqqında qeyd etmişdir: "Zəki Validinin Rusiya Arxeoloji Cəmiyyətinin "Qeydlər" adlı dərgisində çıxan məqalələri V.V.Bartoldun diqqətini çəkmişdi. V.V.Bartold gənc başqırd alimini Petroqrada dəvət etmişdi. Beləcə, Z.Validi Rusiya Arxeoloji və Coğrafiya Cəmiyyətinin və Radlov Dərnəyinin toplantılarında iştirak etməyə və V.V.Bartoldla çalışmağa başlamışdı. V.V.Bartoldun Türküstan haqqındakı əsərlərindən basılmaqda olanların təshihinə Z.Validi baxmışdır. V.V.Bartold da Z.Validinin hazırladığı əsərlər üçün Rusiya arxivlərindən istifadə izni alınmasında ona yardım etmişdir". Rusiya türkologiya tarixinin qızıl səhifələri isə çoxlarının da etiraf etdiyi kimi, V.V.Bartoldla başlayıb, V.F.Minorski ilə davam edir və Zəki Validi Toğanla tamamlanır" (7, s. 5).

Azərbaycanda Z.V.Toğanla bağlı müxtəlif tədqiqatçılar 90-cı illərdən başlayaraq araşdırmalar aparmışlar. Onlardan Mirzə Ənsərli, Bəşarət Bəşirova, Tofiq Nəcəfli, İsfəndiyar Vahabzadə, Aydın Mədətoğlu və Vaqif Piriyevi göstərmək mümkündür. Onun bəzi əsərləri Azərbaycan dilinə tərcümə edilmiş, həyatı, ictimai-siyasi və elmi fəaliyyəti ilə bağlı məqalələr yazılmış, müxtəlif qəzet və jurnallarda çap edilmişdir. M.Ənsərli 1998-ci ildə 56 səhifədən ibarət "Prof. Dr. Əhməd Zəki Validi Toğan" haqqında kitabça çap etdirmişdir. Sonra isə M.Ənsərli və B.Bəşirova Z.V.Toğanın "Ümumtürk tarixinə giriş" əsərini Azərbaycan dilində nəşrə hazırlamışlar. M.Ənsərli və T.Nəcəfli Z.V.Toğanın "Azərbaycan" adlı məqaləsini Azərbaycan dilində 2007-ci ildə çap etdirmişlər. T.Nəcəfli "Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında" adlı namizədlik dissertasiyasını yazan zaman Z.V.Toğanın əsərlərindən istifadə etmişdir. AMEA-nın "Elmi Araşdırmalar" və "Xəbərlər"ində M.Ənsərlinin 2 məqaləsi – "Professor Əhməd Zəki Validi Toğanın əsərlərində Azərbaycanın qədim tarixinin bəzi məsələləri haqqında" və "Əhməd Zəki Validi Toğanın əsərlərində türk və monqol fəthlərinin dünya tarixində əhəmiyyətinə dair irəli sürülən fikirlər" adlı məqalələri nəşr edilmişdir. 1997-ci ildə M.Ənsərli və İ.Vahabzadə "Mühacirət tarixindən yarpaqlar" adlı publisistik əsər çap etdirmişlər. Burada Z.V.Toğanla yanaşı bəzi mühacirlər haqqında da məlumat verilmişdir. Türkoloq-tədqiqatçı A.Mədətoğlu 2004-cü ildə "Milliyyət", 2007-ci ildə isə "Türküstan" qəzetlərində "Böyük Türk Mücahidi Əhməd Zəki Validi Toğan" adlı məqalələr çap etdirmişdir. Bu məqalələrdə prof. Z.V.Toğanın siyasi fəaliyyəti öz əksini

tapmışdır. V.Piriyev Z.V.Toğanın 1928-1931-ci illərdə İstanbul Universitetində oxuduğu 4 mühazirənin Türkiyədə nəşr olunmuş variantını Azərbaycan dilində çap etdirmişdir. Tədqiqatçı V.Piriyev Z.V.Toğanın "Azərbaycanın tarixi coğrafiyası" işinə ön söz yazmışdır. Bu əsərdə müəllif Dərbənd, Bərdə, Quba, Şabran, Şamaxı, Bakı, Ərəş, Şəki və Zaqatala toponimləri, onların mənası və tarixi haqqında məlumat vermişdir (2, s. 89, 90, 91, 92).

Müasir türk tarixşünaslığının banilərindən biri sayılan görkəmli başqırd professoru Z.V.Toğanın 2010-cu ildə anadan olmasının 120 illiyi qeyd olunmuşdur. Bu münasibətlə 2010-cu il TÜRKSOY tərəfindən Z.V.Toğan ili elan olunmuş və təşkilata üzv olan ölkələrdə onunla bağlı bir sıra tədbirlər keçirilmişdir. Bu tədbirlər çərçivəsində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında alimin yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransın iştirakçıları Azərbaycan Milli Kitabxanası, TÜRKSOY, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu olmuşdur.



**Milli Kitabxanada Z.V.Toğanın yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfrans**

Konfransdan öncə Milli Kitabxanada "Əhməd Zəki Validi Toğan – 120" adlı kitab sərgisi açılmışdır. Milli Kitabxanasının direktoru Kərim Tahirov Z.V.Toğanın 120 illiyinə həsr olunan bu konfransın kitabxanada keçirilməsinin böyük hadisə olduğunu vurğulamışdır. Professor Gövhər Baxşəliyeva "Prof. Dr. Əhməd Zəki Validi Toğanın həyatı və fəaliyyəti" mövzusunda məruzə etmişdir. Z.Validi Toğanın keçdiyi həyat yoluna nəzər salan G.Baxşəliyeva onun Başqırdıstanda ilk və orta təhsili, Kazandan Vyanayadək yiyələndiyi ali təhsili, elmi və pedaqoji fəaliyyəti, Milli Başqırd hökumətində tutduğu yüksək vəzifələr və s. haqqında məlumat vermişdir. 1925-ci ildə Türkiyəyə gələn Z.V.Toğanın yaşadığı dövrü iki hissəyə bölmək mümkün olduğunu qeyd edən məruzəçi (1925-1932; 1939-1970) onun bu illərdəki elmi yaradıcılığı barədə ətraflı danışmışdır. Z.V.Toğanın "Türk metodologiyası", "Ümumtürk tarixinə giriş", "Tarixdə üsul", "Türkün müqəddəratı", "Quran və türklər", "Oğuz dastanı" və digər kitablarından söz açan G.Baxşəliyeva onun elmi fəaliyyəti zamanı Azərbaycanın tarixinə çox böyük əhəmiyyət verdiyini qeyd etmişdir: "Zəki Validi Azərbaycan türklərinin tarixi, etnoqrafiyası, ictimai-siyasi, iqtisadi və mədəni vəziyyətinə dair çoxlu sayda elmi məqalə yazıb müxtəlif dövrlərdə ayrı-ayrı dillərdə buraxılan elmi-kütləvi jurnal və ensiklopediyalarda çap etdirmişdir. O, 1927-ci ildə "Azərbaycan etnoqrafiyasına dair" adlı məşhur tədqiqatını işləyib nəşr etdirmişdir. Z.Validinin "Ümumtürk tarixinə giriş" əsərində Azərbaycan tarixinin qədim və orta əsrlər dövrünə geniş yer verilmişdir. O, bu əsərində Azərbaycan tarixinin müxtəlif məsələlərini işıqlandırmağa cəhd göstərmiş və buna müəyyən mənada nail ola bilmişdir".

Türkiyə Milli Kitabxanasının direktoru Tuncel Acar "Əhməd Zəki Validi Toğanın həyatı və fikri mücadiləsi" mövzusunda məruzə etmişdir. O, görkəmli siyasətçi, dövlət xadimi olan Z.V.Toğanın mücadiləsinin bu gün siyasətçilərə bir örnək olduğunu dilə gətirmişdir. Onun tarixdə qoyduğu izlərin əbədiliyini, tarix elmində yaratdığı əsərlərin mükəmməlliyini qeyd edən T.Acar Toğanın türkə aid bütün dəyərləri öyrənmək istəyən alim olduğunu söyləmişdir.

Z.V.Toğanın qızı İsenbikə Toğan "Zəki Validi Toğanın tarixçiliyində coğrafiyanın rolu" mövzusunda çıxış etmişdir. İ.Toğan atasının əsrin əvvəllərində Bakıda olmasının onun üçün çox əhəmiyyəti olduğunu və həyatının qərarlarını o vaxt məhz Bakıda verdiyini bildirmişdir. Atasının coğrafiya elminə verdiyi önəmi onun Azərbaycana dair çalışmaları üzərində görmək mümkün olduğunu qeyd edən İsenbikə görkəmli alimin Azərbaycan coğrafiyası haqqında geniş məqaləsindən ətraflı söz açmışdır. Z.V.Toğan bu məqalədə Bakı və Azərbaycanın digər şəhərləri haqqında məlumat vermişdir. O, 1932-ci ildə çap etdirdiyi məqalədə həmin vaxtlar İçərişəhərdə 8 məscidin olduğunu qeyd etmişdir. Məqalədə müəllif bölgələrdən keçən yolları təsbit etmiş və karvan yollarının ticarətdə malik olduğu əhəmiyyətdən danışmışdır. İ.Toğan atasının coğrafiyaya aid əsərlərində yararlandığı qaynaqlardan da söz açmışdır.

Ə.Z.Validi adına Başqırdıstan Respublikası Milli Kitabxanasının direktoru Azad İbrahimov "Ə.Z.Validi adına Başqırdıstan Respublikası Milli Kitabxanası başqırd xalqının mənəvi-mədəni irsinin qoruyucu mərkəzi kimi" adlı məruzəsində bu müəssisənin dünyada başqırdlar haqqında kitabların toplandığı yeganə kitabxana olduğunu qeyd etmişdir. O, rəhbərlik etdiyi kitabxananın başqırd muxtariyyətinin adını daşıdığından fəxr duyduğunu bildirmişdir. Milli Kitabxananın fondunda Ə.Z.Validinin saxlanılan əsərlərindən söz açan A.İbrahimov, onun bu sırada Azərbaycana aid yazılarının xüsusi yeri olduğunu, ümumiyyətlə, əsərlərində türk əhalisinin yaşadığı bütün ərazilərin coğrafiyasını əhatə edə bildiyini söyləmişdir.

TÜRKSOY-un baş katibinin müavini Firat Pustas bu təşkilatın 2010-cu ili Toğan ili elan etmək qərarını ötən il məhz Bakıda verdiyini bildirmişdir. O, bundan öncə İstanbulda təşkil edilmiş simpoziumu və Qazaxıstanda keçirilmiş toplantını xatırlamış və Bakıdakı tədbirin hazırlıq prosesindən söz açmışdır. Təmsil etdiyi təşkilatın məqsədinin bütün dünya türklərinin mədəni xəzinəsini qorumaq olduğunu deyən natiq Z.V.Toğan yaradıcılığının məhz belə qiymətli xəzinə olduğunu qeyd etmişdir.

İ.Qaspıralı adına Krım Tatar Kitabxanasının direktoru Aydar Emirov "Zəki Validi Toğan və Cəfər Seydaməd Kırımər. İki lider – iki tale: parallel kəsişmə" mövzusunda çıxış etmişdir. O, Krım tatarlarının azadlıq mübarizəsinin lideri olan Cəfər Seydaməd Kırımərlə Əhməd Zəki Validi Toğanın həyat və fəaliyyətində oxşar cəhətlərdən söz açmışdır. A.Emirov hər iki liderin təxminən eyni vaxtda kəndli ailəsində dünyaya göz açdığını, hər ikisinin İ.Qaspıralının "Tərcüman" qəzetindən təsirləndiyini qeyd etmişdir. Hər ikisi xalqlarının ruslaşdırılmasına mane olmağa çalışmış və qadın hüquqlarına eyni münasibət bəsləmişdir. Hər ikisi ömrünün sonunu Türkiyədə keçirmişdir (6, s. 10).

Elmin inkişafı hadisələr və tarixi faktların yenidən dəyərləndirilməsinə əsas verir. Z.V.Toğanın "Ümumtürk tarixinə giriş" kitabı türk tarixşünaslığının müqəddəs kitabı hesab oluna bilər və kitab elə elmi ucalıqda, elə vüsətlə qələmə alınıb ki, oradakı hər hansı tarixi hörgünün, ilmələrin yerini dəyişməyə, ona yenidən qələm çalmağa heç kəsin nə cürəti, nə də elmi təfəkkürü müsaidə edə bilər. Z.V.Toğan Türküstanın və Turan aləminin tarix səhifələrini əzbər bildiyi kimi, buradakı boyalar və böyük nəsil şəcərələrinin yeddi arxadan dönənlərini də tanıyırdı. Z.V.Toğan sanki tarixşünaslığın göydən gələn kitabını yazıya köçürmüşdür. "Ümumtürk tarixinə giriş" 3000 illik bir keçmişdən üzü bəriyə qədər tarixi dönəmləri ehtiva edir və 1905-ci ildə azərbaycanlı Əli bəy Hüseynzadənin səsləndirdiyi "Türklər kimdir və kimlərdən ibarətdir?" sualına ən dolğun cavabı yalnız Z.V.Toğanın bu kitabı vermişdir (7, s. 5).

Z.V.Toğan "Xatirələr"ində aşağıdakı fikri vurğalamağı lüzum görmüşdü: "Ermənilərə Baqrat dövründəki böyük Ermənistanı əhya etmək xülyası ilə azərbaycanlılarla amansız müca-

diləyə girmək və mədəni dünyanı vəlvələyə salmaq əvəzinə öz dil və dinləri əsasında milli kültürlərini inkişaf etdirməyi tövsiyə etmiş və bu yolla Qafqaz müsəlmanlarının sevgisini qazanmışdı". Bu sitat Qafqazda erməni millətçilərin körüklədikləri münaqişəyə Z.V.Toğanın münasibətini aşkara çıxarmaq baxımından da səciyyəvi sayılmalıdır (5, s. 14 – 15). Bunu 2020-ci ildə baş vermiş 44 günlük müharibə də sübut etmişdir. Azərbaycan heç də ermənilərə qarşı mübarizəyə başlamamış, döyüşlər bizim ərazimizdə getmişdir. Z.V.Toğan əsrin əvvəlində ermənilərin azərbaycanlılara qarşı haqsız mübarizəsinin mahiyyətini açıq şəkildə əks etdirmişdir.

Müasir dövrdə Azərbaycan Respublikasının Başqırdıstanla elmi əlaqələri müxtəlif aspektlərdə davam etdirilir. Belə ki, Bakı Dövlət Universitetində Başqırdıstan Dövlət Pedaqoji Universiteti Sosial-humanitar fakültəsinin dekan müavini, dosent Qilmiyanova Kitabxanaçılıq-informasiya fakültəsində I kurs tələbələrinə "Kitabxana işinin tarixi" fənni çərçivəsində "Müasir kitabxana mədəniyyəti" mövzusunda mühazirə oxumuşdur. Tələbələr mühazirəni maraqla qarşılamış və qonağa suallar vermişlər.



**Qilmiyanova Bakı Dövlət Universitetində**

Qilmiyanova fakültədə İKT işinə həsr edilmiş elmi konfransda çıxış etmişdir. Respublikanın qabaqcıl kitabxana-informasiya müəssisələrinə gedişlər də təşkil edilmişdir. Təcrübə mübadiləsi universitetlərarası memorandum əsasında həyata keçirilmişdir. Həmin razılaşmaya görə, Kitabxanaşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru P.Kazımi 2020-ci ilin may ayında Başqırdıstan Dövlət Pedaqoji Universitetində təcrübə mübadiləsində olmuşdur (1, s. 2). Bu iki türk respublikası universitetlərinin elmi əlaqələri bu gün də maraq doğurur.

Azərbaycan türk respublikaları və Rusiya Federasiyasının tərkibində olan türk subyektləri ilə əlaqələrin genişlənməsinə xüsusi diqqət yetirir.

## Ədəbiyyat

1. Başqırdıstan Dövlət Pedaqoji Universiteti Sosial-humanitar fakültəsinin dekan müavini Kitabxanaçılıq-informasiya fakültəsində. Bizim söz qəzeti, 2013, 25 dekabr, s. 2.
2. Ənsərli Mirzə. Professor Əhməd Zəki Validi Toğanın həyatı və elmi fəaliyyətinin Azərbaycanda öyrənilməsi // Əhməd Zəki Validi Toğanın anadan olmasının 120 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı: MKM, 2010, s. 88-92.
3. Göyüşov Altay. Rusiyada monarxiyanın süqutundan SSRİ-nin yaranmasına qədər olan dövrdə müsəlman-türk xalqlarının milli-azadlıq mübarizəsi (1917-1921). Bakı: EL – ALliance, 2002, 120 s.
4. Koygeldiyev Mambet. "Alaş Orda" Sovet hakimiyyətinə alternativ siyasi qurum kimi // Alaş Orda: Qazax dövlətçiliyinin tarixində əhəmiyyəti. Bakı: Şərq-Qərb, 2018, s. 27-49.
5. Quliyev Vilayət. Zəki Validi Toğanın "Xatirələr"ində Azərbaycan. 525-ci qəzet, 2014, 6 dekabr, s. 14-15.
6. Məmmədov Vüqar. Türk milləti üçün ədəbi qürur qaynağı. Türküstan qəzeti, 2010, 9-15 may, s. 10.
7. Turan Azər. Zəki Validi Toğan. Ədəbiyyat qəzeti, 2013, 1 mart, s. 5.

**Н.Дж.Мехтиева**

**Ахмед Зеки Валиди Тоган и Азербайджан**
***Резюме***

Государственный деятель, человек, который в нужный момент умел реализовать политику, ученый и выдающийся представитель башкирского народа Ахмед Зеки Валиди Тоган также был великим сыном тюркского мира. Его жизнь и творчество, своеобразные черты имеют большое значение. З.В.Тоган, который еще в раннем возрасте получил прекрасное образование, учился в Европе, защитил докторскую диссертацию и получил звание профессора, также в сложившейся ситуации примкнул к национально – освободительному движению и старался делать выводы из событий, которые происходили в России. Его жизнь была тяжелой. Он со временем превратился в одного из лидеров национально-освободительного движения в Башкирии, где родился и вырос. В творчестве З.В.Тогана нашли свое отражение его родина и дальнейшая судьба башкирского народа. Одновременно ученый в своих трудах воспел почти все тюркские государства. Ученый и политический деятель З.В.Тоган наряду со всеми тюркскими народами, питал большое уважение и любовь также к азербайджанскому народу. В начале XX века он дал ценную информацию о Баку и других городах Азербайджана. После распада Советского Союза память З.В.Тогана была отмечена в его родине Башкирии, а также в других государствах, членах ТЮРКСОЙ. Этот великий сын тюркского народа достойный внимания своей бесценной деятельностью.

**N.J.Mehdiyeva**

**Ahmed Zeki Validi Togan and Azerbaijan**
***Summary***

The statesman, person, who was able to realize the policy in necessary moment, the scholar and well – known man of Bashkir people Ahmed Zeki Validi Togan was the great son of the Turkish world too. His life and creative work, characteristic features are very important. Z.V.Togan who was perfectly educated in childhood, also got the European education, became the doctor, then the professor, at the same time applied to the movement of national liberation in current situation and drew a conclusion from the events occurred in Russia. His life was very hard. He became one of the leaders of the movement of national liberation in Bashkortostan where he was born and grew up. His country and future of Bashkir people had been reflected in his works. At the same time the scholar wrote in his works about nearly all of Turkish countries. The scholar and statesman Z.V.Togan applied with best respect and love not only to all Turkish peoples, also Azerbaijani one. In the beginning of $XX^{th}$ century he gave the valuable information of Baku and other cities of Azerbaijan. After the disintegration of Soviet Union, the memory of Z.V.Togan had been celebrated in his country Bashkortostan, also by other states members of TURKSOY. This great son of the Turkish people is worthy of interest with his perfect activity.

*Rəyçi: dos. A.A.Mehdiyeva*

*Redaksiyaya daxil olub: 13.05.2022*